# Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin mühafizəsi (SƏTƏM) Siyasəti

## Məqsəd

SOCAR Midstream Operations (SMO) şirkətində əməkdaşlarımızın sağlamlığı və təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və əməliyyatlarımızın bütövlüyü biznesimizin əsas prinsipləridir . Biz karbohidrogenlərin daşınması, saxlanması və idarə olunması da daxil olmaqla, midstream fəaliyyətlərimizi insanların, cəmiyyətin və ətraf mühitin qorunmasını təmin edən şəkildə həyata keçirməyə tam öhdəlik götürürük.

## Məsuliyyət

Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin mühafizəsi ortaq bir məsuliyyətdir – vəzifəsindən və ya tutduğu mövqedən asılı olmayaraq, hər bir şəxs təhlükəsizliklə bağlı uğurlu nəticələr əldə etmək üçün öz töhfəsini verməyə cavabdehdir.

- **SMO rəhbərliyi** SƏTƏM-i strateji planlaşdırmaya, əməliyyatlara və fəaliyyətin qiymətləndirilməsi proseslərinə inteqrasiya edir.
- **Xətt Menecerləri** prosedurların icra olunmasını, risklərin idarə edilməsini və işçilərin təlimatlandırılmasını təmin edirlər.
- **İşçilər və podratçılar** öz təhlükəsizliklərinə görə şəxsi məsuliyyət daşımalı, təhlükəli vəziyyətləri bildirməli və prosedurlara əməl etməlidirlər.

## Siyasət Bəyanatı

Biz aşağıdakı prinsiplərə sadiqik:

- Bədbəxt hadisə, xəsarət və peşə xəstəliklərini sıfıra endirmək üçün çalışmaq.
- Təhlükəsiz, etibarlı və tənzimləyici tələblərə uyğun iş mühitini təmin etmək məqsədilə sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi, əməliyyatlar, risklərin idarə olunması və səriştənin inkişafına dair inteqrasiya olunmuş sistemləri tətbiq etmək.
- Fəaliyyət göstərdiyimiz ölkələrdə tətbiq olunan bütün aidiyyəti olan SƏTƏM qanunlarına və qaydalarına riayət etmək və zərurət olduqda şirkətimizin standartlarını sənayenin qabaqcıl təcrübələri əsasında təkmilləşdirmək.
- Sızmaların qarşısının alınması, emissiyaların idarə olunması və məsuliyyətli fəaliyyət yolu ilə ətraf mühitə təsirləri minimuma endirərək ətraf mühitin mühafizəsi sahəsində göstəriciləri davamlı şəkildə yaxşılaşdırmaq.
- İstixana effektinə səbəb olan qaz emissiyalarını azaltmaq, enerji səmərəliliyini artırmaq və resurslardan məsuliyyətli istifadə edərək iqlim dəyişikliyinin azaldılmasına yönəlmiş qlobal səyləri fəal şəkildə dəstəkləmək.
- Uzunmüddətli ekoloji dayanıqlılığı dəstəkləmək məqsədilə iqlim və davamlılıqla bağlı amilləri planlaşdırma və əməliyyatlarımıza inteqrasiya etmək.
- Bütün baş vermiş bədbəxt hadisələri araşdıraraq kök səbəbləri müəyyən etmək və öyrənilən dərsləri fəaliyyətlərimizə inteqrasiya etmək
- İşçilər və maraqlı tərəflərlə açıq ünsiyyət qurmaq və müntəzəm məsləhətləşmələr aparmaqla onların fikirlərinin eşidilməsini və nəzərə alınmasını təmin edərək, liderlik, təlim və maarifləndirmə vasitəsilə fəal SƏTƏM mədəniyyətinin yaradılmasına dəstək vermək.
- Bütün işçi heyətinin vəzifələrini, sağlamlığa və ətraf mühitə zərər vermədən, təhlükəsiz şəkildə yerinə yetirməsi üçün geniş və əhatəli təlimləri təşviq etmək.
- Fövqəladə hallara hər zaman hazır olmaq. Əməliyyatlarımızda baş verə biləcək potensial qəza ssenarilərinə uyğun yaradılmış cavab strategiyalarını müntəzəm olaraq test etmək və yeniləmək.
- Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühitə məsuliyyətlə yanaşan, idarəetmə sistemləri bizim standartlarımıza və gözləntilərimizə uyğun olan podratçılarla işləməyi üstün tutmaq.
- SƏTƏM siyasətimizin və idarəetmə sistemimizin düzgün tətbiq olunmasını və davamlı inkişafını təmin etmək üçün dövri yoxlamalar daxil olmaqla, nəzarət tədbirləri yaratmaq və tətbiq etmək.

Fərhan Ç. Əliyev, İcraçı Direktor

Bu Siyasət bəyanatı 1 iyun 2025-ci ildən etibarən qüvvədədir